Tarix və onun problemləri, №1-2 2009

XƏYYAM İSMAYILZADƏ
*BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dissertantı*

# AZƏRBAYCAN – İSVEÇ ƏLAQƏLƏRİ

Milli müstəqillik əldə edildikdən sonra Azərbaycan dünya birliyi ölkələri sırasında öz yerini və rolunu düzgün müəyyən etməyə, milli təhlükəsizliyini qoruyub saxlamağa, beynəlxalq aləmdə etibarlı tərəfdaşlar və strateji müttəfiqlər arayıb tapmağa yönələn xarici siyasət yeritməyə başladı. Düşünülmüş, elmi cəhətdən əsaslandırılmış və uzunmüddətli xarakter daşıyan bu siyasətin mühüm istiqamətini inkişaf etmiş qabaqcıl Avropa ölkəsi olan İsveç ilə çoxtərəfli əlaqələrin yaradılması və möhkəmləndirilməsi təşkil edir. Qeyd olunan sahədə son onillik ərzində bir çox uğurların əldə edilməsinə baxmayaraq müasir siyasi elmdə o kifayət dərəcədə araşdırılmamışdır. Bu məqalədə həmin elmi boşluğu qismən də olsa tamamlamaq məqsədi qarşıya qoyulur.

Müasir şəraitdə Azərbaycan ilə İsveç arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi tarixi zərurətdir. Hər şeydən əvvəl göstərilməlidir ki, digər Skandinaviya ölkələri kimi İsveç də azad bazar münasibətlərinin yaradılması, demokratiyanın inkişaf etdirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sülhsevər və bitərəf xarici siyasət sahəsində böyük uğurlar qazanmışdır. Onun bu istiqamətlərdə əldə etdiyi müsbət təcrübə ölkəmizin qarşısında duran müvafiq problemlərin həlli baxımından faydalı görünür. Digər tərəfdən Azərbaycanın əlverişli geosiyasi və geostrateji mövqeyi, zəngin təbii ehtiyatları, müstəqil xarici siyasəti, digər xalqlar ilə qarşılıqlı faydalı əməkdaşlıq yaratmaq əzmi başqa ölkələr kimi İsveçin də milli maraqlarına uyğun gəlir.

Hər bir müstəqil dövlət kimi Azərbaycan da özünün xarici siyasətində beynəlxalq hüquq normalarına və ümumbəşəri dəyərlərə əsaslanmaqla, müasir dövrdə qərarlaşmış olan yeni dünya nizamını nəzərə almaqla, onları yerli şərait və milli xüsusiyyətlər ilə əlaqələndirməklə dünya birliyinə inteqrasiya olunmaqdadır. Skandinaviya ölkələri ilə, o cümlədən də İsveç ilə hərtərəfli əlaqələrin genişləndirilməsi bu prosesin uğurlu gedişinə müsbət təsir göstərir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın digər Skandinaviya ölkələri kimi İsveç ilə əlaqələri də onun müstəqilliyi dövründə uzunmüddətli və sistemli xarakter almışdır. Bununla yanaşı həmin əlaqələrin digər tarixi köklərə malik olduğu da unudulmamalıdır. Belə ki, hələ I Şah Abbasın dövründə Ağqoyunlu və Səfəvi dövlətlərini təmsil edən diplomatik nümayəndələri digər Avropa ölkələri ilə yanaşı, İsveç hökuməti ilə danışıqlar aparmışdı (1, s.189). Sonralar, yəni 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasında Skandinaviya ölkələri ilə əlaqələrə xüsusi diqqət yetirmişdir. Müstəqil hökumətin formalaşdığı barədə radio vasitəsilə məlumat digər qabaqcıl Avropa ölkələri kimi, İsveçin paytaxtı Stokholm şəhərinə də göndərilmişdi. ADR-in mövcudluğu dövründə İsveç ilə diplomatik əlaqə yaradılmış, V.Pluqun başçılığı ilə həmin ölkənin diplomatik nümayəndə heyəti Bakıda fəaliyyətə başlamışdı (2, s.88, 348) .

XIX əsrin 70-ci illərində Azərbaycan dünyada sənaye üsulu ilə neft hasil edən ilk ölkə kimi İsveçin məşhur Nobel qardaşlarının da diqqətini cəlb etmişdi. Onlar burada "Nobel qardaşları cəmiyyəti"ni yaradaraq neft biznesinin əsasını qoymuş, uzun müddət ərzində uğurla fəaliyyət göstərmişlər. Belə ki, 1879-1909-cu illərdə bu cəmiyyətin fəaliyyətdə olan buruqlarının sayı 12-dən 276-ya, burada zıxarılan neftin miqdarı isə 919 puddan 66893 puda yüksəlmişdi (3, s.34). «Nobel qarlaşları cəmiyyəti» inqilaba qədərki Rusiyanın ən güclü və nüfuzlu neft inhisarçısı rolunu oynamışdır. Bunu da qeyd etmək yerinə düşər ki, Nobel qardaşlarının təsis etmiş olduğu və bu günə qədər uğurla

fəaliyyət göstərən Beynəlxalq Nobel Mükafatı fondunun ilkin maliyyə bazası məhz Bakı neftindən əldə edilən gəlir olmuşdur (4, s.1).

1920-ci ildə Azərbaycanda sosialist çevrilişi baş verdikdən sonra onun 70 ildən artıq SSRİ-nin tərkibində olduğu dövrdə digər Skandinaviya ölkələri kimi, İsveç ilə əlaqələri də demək olar ki, unuduldu. Yalnız müstəqillik illərindən etibarən həmin əlaqələr geniş və hərtərəfli xarakter kəsb etdi, yüksələn xətt üzrə getməyə başladı. Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi, digər regional və beynəlxalq layihələrin reallaşmasında fəal iştirakı, siyasi və mədəni həyatda əldə etdiyi mühüm nailiyyətlər, beynəlxalq nüfuzunun artması və möhkəmlənməsi bu prosesin intensiv getməsinə real zəmin yaradır. Bu baxımdan 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» nin bağlanılması və 1998-ci ildə Bakıda Qədim İpək Yolunun bərpasına (TRASEKA) həsr olunmuş Beynəlxalq konfransın keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Həmin konfransın işində iştirak edən İsveç nümayəndə heyəti bu nəhəng nəqliyyat dəhlizinin xalqlar və ölkələr arasında kommunikasiya əlaqələri yaradılması işində müstəsna əhəmiyyət kəsb etdiyini vurğulamışdı. Nümayəndə heyətinin başçısı K.Talkman öz çıxışında qeyd etdi ki, "Asiya və Avropa arasında mğnasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilmiş bu tarixi görüşdə iştirak etməkdən İsveç son dərəcə fəxr duyur. İsveç hələ vikinqlər dövründən bu regionla tanışdır, ulu babalırımız o zaman qızıl və ipək dalınca buraya gəlmişdir. Xeyli sonralar isə Nobel qardaşları kimi digər isveçlilər bu ölkəyə gələrək beynəlxalq biznesi inkişaf etdirmişlər. İndi isveçlilər yenidən diplomatik nümayəndəliklə, ticarət nümayəndələri və kapital qoyuluşu ilə Bakıdadır. Biz bu konfransı çox dəstəkləyirik, çünki o nəinki Asiya ilə Avropa arasında iqtisadi münasibətlərin inkişafına imkan yaradacaq, həm də mədəni və sosial əlaqələrə kömək göstərəcəkdir" (5, s.34) .

Ümumilikdə götürdükdə Azərbaycanın dünyanın qabaqcıl neft və qaz şirkətləri ilə birgə həyata keçirdiyi möhtəşəm layihələr ölkəmizin iqtisadi qüdrətini möhkəmləndirməklə yanaşı, onun beynəlxalq aləmdə siyasi nüfuzunun genişlənməsinə və mədəni əlaqələrinin inkişafına əlverişli şərait yaratdı. Bu münasibətdə 2005-ci il mayın 25-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinin isə düşməsi müstəsna əhəmiyyət kəsb edir. O Azərbaycanın təkcə iqtisadi qüdrətinin artmasına deyil, həm də beynəlxalq aləmdə tanınmasına və nüfuzunun möhkəmlənməsinə güclü təkan verdi. Əsası ümummilli lider H.Əliyev tərəfindən qoyulmuş uzunmüddətli neft strategiyasının uğurla davam etdirildiyini göstərən bu mühüm hadisə ölkəmizin digər dövlətlər kimi İsveç ilə olan əlaqələrinin möhkəmlənməsinə güclü müsbət təsir göstərdi.

Müstəqillik dövründə Azərbaycan – İsveç əlaqələrinin inkişafında özünü göstərən mühüm bir keyfiyyət yeniliyi onun təkcə iqtisadi sahə ilə məhdudlaşmayaraq, digər sferaları da əhatə etməsidir. Bu münasibətdə ölkələrimiz arasında siyasi münasibətlərin qərarlaşması və inkişafı xüsusi önəm kəsb edir. Həmin sahədə əlaqələr müstəqilliyimizin lap əvvəlindən etibarən təşəkkül tapmağa başlamışdır.

Qeyd olunmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk 18 Avropa ölkəsi sırasında Böyük Britaniya, Almaniya, Fransa və İtaliya ilə yanaşı, Skandinaviyanın bütün dövlətləri, o cümlədən İsveç də olmuşdur (6, s.47). Lakin sonralar bir sıra obyektiv və subyektiv səbəblər üzündən digər Skandinaviya ölkələri ilə olduğu kimi, İsveçlə də ölkəmizin əlaqələri bir müddət lazımi səviyyədə davam etdirilmədi.

Azərbaycan ilə Skandinaviya ölkələri, o cümlədən İsveç arasındakı siyasi münasibətlərin inkişafının mühüm bir istiqamətini onun ATƏT-dəki fəaliyyəti çərçivəsində Dağlıq Qarabağ probleminin sülh yolu ilə, respublikamızın ərazi bütövlüyünü saxlamaqla ədalətli həllinə siyasi dəstəyinin güclənməsi təşkil edir. 1996-cı ilin dekabrında Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə ke-

çirilən Zirvə toplantısında 53 dövlət ölkəmizin ərazi bütövlyünü qətiyyətlə dəstəkləmiş və Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində status verilməsinin mümkünlüyü göstərilmişdi (7, s.388). Bu sənədə imza atanlar sırasında İsveçin rəhbərliyi də var idi. Bununla da o, Azərbaycan ilə beynəlxalq hüquq normaları və sivil qaydalar əsasında siyasi münasibətləri qoruyub saxlamaq və gələcəkdə inkişaf etdirmək arzusunda olduğunu əyani surətdə nümayiş etdirdi.

2000-ci ildə Bakıda İsveç Konsulluğunun açılması ölkələrimiz arasında siyasi əlaqələrin inkişafına təkan verdi. Bu prosesdə ilk konsul Ərdal Otuzbir xeyli rol oynadı (8, s.2).

2002-ci ilin fevralında İsveç-Azərbaycan Komitəsinin bir qrup nümayəndəsi Azərbaycana işgüzar səfər etdi. Nümayəndə heyətinə İsveç və Avropa parlamentlərinin üzvü O.Şmid rəhbərlik edirdi. Qonaqlar Azərbaycanın Xarici İşlər və Mədəniyyət Nazirliklərində çoxtərəfli görüşlər keçirmişlər. Nümayəndə heyətini qəbul edərkən qonaqlara Azərbaycanda gedən demokratikləşmə prosesləri, siyasi, sosial-iqtisadi və hüquqi islahatlar barədə ətraflı məlumat verildi, habelə ölkəmizin beynəlxalq strukturlara və Avropa ailəsinə daha çox yaxınlaşdığı qeyd edildi. Həmin səfər zamanı aparılan söhbətlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün törətdiyi ağır nəticələr xüsusilə vurğulandı, göstərildi ki, Ermənistan bu münaqişənin dinc yolla həllində qeyri-konstruktiv mövqe tutmaqla onu ləngidir. İsveçli qonaqlar Sabirabaddakı qaçqın düşərgələrinin birində insanlarla görüşdüklərini və onların ağır vəziyyəti ilə tanış olduğunu bildirdilər. Nümayəndə heyətinin rəhbəri O.Şmid qaçqınların acınacaqlı vəziyyətinin onu çox məyus etdiyini və onlara humanitar yardım göstərilməsi üçün İsveç hökumətinə və parlamentinə müraciət edəcəyinə söz verdi. O həm də vurğuladı ki, münaqişəni həll etmək və regionda sülhü bərqərar etmək, qaçqınları öz doğma yerlərinə qaytarmaq üçün Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə sözsüz əməl etməlidir (9, s.2).

Azərbaycan hökuməti və parlamenti 1994-cü ildən başlayaraq Xocalı soyqırımını, bütövlükdə erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri olduğu kimi dünya dövlətlərinə, parlamentlərinə və ictimaiyyətinə çatdırmaq, bütün bunların soyqırım siyasəti kimi tanınmasına nail olmaq xətti yeridir. Millətimizə qarşı törədilmiş bu faciələrin beynəlxalq hüquqi-siyasi qiymət almasına, onların ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olmağa yönələn bu xətt digər mütərəqqi ölkələrdə olduğu kimi İsveçdə də getdikcə daha çox tərəfdarlar tapır.

İsveç ilə siyasi əlaqələrin möhkəmlənməsini həm də bundan görmək olar ki, xalqımızın qan yaddaşı Xocalı soyqırımı digər xarici dövlətlərdə olduğu kimi, bu ölkənin paytaxtı Stokholm şəhərində BMT-nın daimi nümayəndəliyi icazəli mitinq keçirdi. Buraya toplaşanlara Xocalı soyqırımı haqqında ətraflı məlumat verildi və erməni vandalizmi lənətləndi. BMT-nin daimi nümayəndəliyinin rəsmisi ilə görüş keçirilmiş və nümayəndəliyə faciə haqqında məktub təqdim olunmuşdur (10, s.4). Bundan əlavə İsveçdə yaşayan azərbaycanlılar Ermənistanın işğalçı siyasəti, R.Köçəryanın cinayətkar əməlləri barədə məktub hazırlayaraq, buraya Qarabağda, xüsusilə Xocalıda törədilmiş vəhşilikləri əks etdirən fotoşəkilləri də əlavə etməklə, onu Xarici İşlər Nazirliyinə, habelə yerli kiv orqanlarına göndərmişdilər. Məktubda Ermənistanın işğal etdiyi əraziləri qeyd-şərtsiz boşaldılmasına dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin indiyədək yerinə yetirilmədiyi qeyd olunurdu. Soydaşlarımız ATƏT-in, BMT-nin Avropa İttifaqı kimi nüfuzlu təşkilatların üzvü olan İsveç rəhbərliyini Ermənistandan işğala son qoymadısını tələb etməyə çağırmışdır (11, s.4) .

Azərbaycan ilə İsveç arasında siyasi əlaqələrin inkişafında 2002-ci ilin dekabrında

qəbul olunmuş «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu çox mühüm rol oynayır. Burada göstərilir ki, bu barədə dövlət siyasətinin əsas məqsədi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və respublikamızın qanunvericilik aktlarına uyğun olaraq, xaricdə yaşayan azərbaycanlılarla bütün sahələrdə əlaqələrin saxlanmasına və inkişaf etdirilməsinə köməklik göstərir, onların əsas hüquq və azadlıqlarının müdafiəsi üçün müvafiq tədbirlər görür (12, s.1).

Bütövlükdə digər Skandinaviya ölkələri kimi, İsveç ilə siyasi əlaqələrin yaradılması və inkişafı müstəqil dövlətimizin xarici siyasəti və diplomatiyasının uğuru hesab edilməlidir. Azərbaycan xalqının ğmummilli lideri H.Əliyev ölkəmizin qısa müddət ərzində xarici dövlətlər ilə siyasi və diplomatik əlaqələr sahəsindəki nailiyyətlərini vurğulayaraq demişdir: "Azərbaycan diplomatiyası dövlətimizin müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlər qurmaq sahəsində mühüm uğurlar qazanmışdır" (13, s.9).

Qeyd olunan bu müddəa eynilə də Azərbaycan – İsveç əlaqələrinə şamil edilməlidir.

Əsası H.Əliyevin prezidentliyi dövründə qoyulmuş Azərbaycan – İsveç siyasi əlaqələri sonrakı illərdə daha da inkişaf etdirilir. Bunu belə bir fakt da sübut edir ki, 2006-cı ildə İsveçin Kralı K.Qustav Respublika günü münasibətilə Azərbaycanın Prezidenti İ.Əliyevə təbrik teleqramı göndərmişdir. Teleqramda səmimi təbriklər və ən xoş arzular çatdırılır, xalqımıza xoşbəxtlik və tərəqqi arzusu, ölkələrimiz arasında əməkdaşlığı gələcəkdə də inkişaf etdirmək istəyi ifadə olunurdu (14, s.1).

Müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki uğurlu fəaliyyətinin mühüm istiqaməti olan Skandinaviya ölkələri ilə mədəni əlaqələrin səviyyəsini inkişaf etdirmək xətti özünün müvafiq ifadəsini İsveç ilə mədəni əməkdaşlığın möhkəmləndirilməsində də tapır. Qeyd edilməlidir ki, bu əlaqələrin tarixi xeyli əvvəllərə – SSRİ-nin mövcudluğu dövrünə gedib çıxır. Doğrudur, həmin illərdə Azərbaycanın mədəni əlaqələri vahid ittifaq dövlətinə daxil olan müstəqil respublika səviyyəsində həyata keçirilirdi. Bununla belə həmin dövrdə də İsveç ilə müəyyən mədəni əlaqələrin mövcud olduğu danılmazdır. Hələ XX əsrin 50-ci illərinin ikinci yarışında, "soyuq müharibə» zəiflədiyi dövrdən Skandinaviya ölkələri ilə mədəni əlaqələrə diqqət yetirilirdi. 1956-cı ildə İngiltərə, Fransa və İspaniya kimi böyük ölkələrlə yanaşı, Danimarka və İsveç ilə aparılan danışıqlarda mədəni əməkdaşlıq məsələləri müzakirə edilmiş və müvafiq sənədlər qəbul olunmuşdur (15, s.1). 1969-cu ildə mədəni sərvətlərin mübadiləsinə dair dövlətlərarası proqrama müvafiq olaraq görkəmli İsveç rəssamı V.Nyuqren Azərbaycana yaradıcılıq məzuniyyətinə gəlmişdi. Elə həmin ildə də Azərbaycan rəssamlarının bir qrupu Norveçdə və İsveçdə yaradıcılıq məzuniyyətində olmuşdu (16, vər.21).

XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın İsveç ilə mədəni əlaqələrində canlanma hiss olundu. Bu, 1975-ci ildə keçirilən Helsinki Müşavirəsində qəbul olunmuş mədəni əməkdaşlıq proqramına uyğun olaraq baş verirdi. 1979-cu ildə İsveçdə Azərbaycan mədəniyyəti günləri keçirilmişdi ki, burada 50 rəsmdən ibarət "Azərbaycan" adlı fotosərgi və "Azərbaycan güşəsi" adlı xalq tətbiqi sənətinin nümunələri nümayiş etdirildi (17, s.4). 1987-ci ilin mayında Bakıda "Smena" jurnalının prizi uğrunda keçirilən beynəlxalq turnirdə iştirak edən 10 komandadan biri İsveçin idi (18, s.4). Həmin dövrdə Azərbaycanın digər Skandinaviya ülkələri və İsveçlə mədəni əməkdaşlığı Xarici İşlər və Mədəniyyət Nazirlikləri, Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Azərbaycan şöbəsi tərəfindən həyata keçirilirdi. 1987-ci ildə H.Əliyevin təşəbbüsü ilə xarici ölkələrdə yaşayan həmvətənlərimiz ilə mədəni əlaqələri təşkil etmək məqsədilə yaradılmış «Vətən» cəmiyyəti xalqlarımız arasında mədəni əməkdaşlığın inkişa-

fında mühüm rol oynadı. Tezliklə bir çox ölkələrdə olduğu kimi, İsveçdə də "Azərbaycan mədəniyyəti" cəmiyyəti fəaliyyət göstərməyə başladı (19, vər.2).

Təkcə 1988-1989-cu illərdə «Vətən» cəmiyyətinin xətti ilə xaricdə yaşayan 47 həmvətənimiz Azərbaycana gəlmiş, 96 mədəniyyət xadimi xarici ölkələrə ezam olunmuşdu. Bu ölkələr sırasında İsveç də vardı. 1990-cı ildə bu cəmiyyət Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərindən ibarət 184 nəfəri əhatə edən 15 nümayəndə heyəti xaricə göndərmişdi ki, bunlardan 8 nəfəri İsveçə ezam olunmuşdu (20, vər.1).

Milli müstəqillik əldə edildikdən sonra ölkəmizin xarici siyasətinin bütün digər istiqamətləri kimi, beynəlxalq mədəni əməkdaşlıq da prinsipcə yeni sosial zəmin ğzərinə keçdi. Bu dövrdən Azərbaycanın İsveç ilə mədəni əlaqələri mütəmadi xarakter aldı, sistemli və uzunmüddətli proqramlar əsasında həyata keçirilməyə və yüksələn xətt üzrə inkişaf etməyə başladı. Hələ 1990-cı ildə İsveçdə Azərbaycan dilində «The Voice of Azerbaijan» (VOA) adlı radioproqram işə başlamışdı. Burada baş verən hadisələrin həftəlik icmalı verilir, diskusiyalar və musiqi verilişləri aparılır, müxtəlif müsahibələr səsləndirilirdi. İsveç qanunlarına əsasən radioproqramların lent yazıları hər il hökumətə təqdim edilməlidir. 1994-cü ildən başlayaraq sözügedən proqramların surətləri həm də Azərbaycan Respublikasının mərkəzi arxivinə göndərilir. O vaxtdan bəri ümumilikdə 2000 saatdan çox Azərbaycan musiqisi, ədəbi əsərlər və məlumatlar səslənmişdir ki, onların əksəriyyətini «Voice of Amerika» dan alınan mətbuat-qəzet kəsikləri formalı materiallar təşkil edir (21, s.218).

Ümumiyyətlə, 90-cı illərdən bu yana İsveçin və isveçlilərin Azərbaycana marağının əhəmiyyətli dərəcədə artması müşahidə olunur. Hazırda bu ölkədə 50 min nəfərdən çox azərbaycanlı yaşayır, onlar İsveçin qanunlarına görə bərabərhüquqlu vətəndaşlar kimi fəaliyyət göstərir. Onlar öz ana dilində təhsil alır, Azərbaycan dilində danışmaq imkanlarına malikdirlər, hətta öz vətəndaşlıq hüquqlarını reallaşdırmaq üçün hökumətdən maliyyə yardımı da ala bilirlər (22, s.218) .

Azərbaycanın iqtisadi və siyasi inkişafı sğrətləndikcə, milli mədəniyyətin çoxşaxəli tərəqqisi özünü göstərdikcə İsveç ilə mədəni əlaqələr daim artmaqda davam edir. Bu işdə vaxtaşırı olaraq respublikamıza səfər edən İsveç-Azərbaycan Komitəsi müstəsna dərəcədə böyük rol oynayır. Komitənin nümayəndə heyətinin 2003-cü ilin fevralın 20-də Azərbaycana gəlişi bu baxımdan daha səmərəli olmuşdur. Nümayəndə heyətinə İsveç və Avropa parlamentlərinin deputatı O.Şmid, İsveç-Azərbaycan Komitəsinin sədri M.Səbəbi və başqaları daxil oldu. Fevralın 21-də qonaqlar İncəsənət və Xalçaçılıq Muzeylərində olmuş, buradakı sənət nümunələri haqqında ətraflı məlumat almışlar. Xalqlarımızın qədim xalçaçılıq sənəti onları dərindən maraqlandırmışdır. Xalça muzeyi adından qonaqlara "Nizami obrazları xalçalarda" adlı kitab hədiyyə verilmişdi. Nümayəndə heyətinin üzvləri İçəri şəhərlə tanışlığın və Qobustanda qədim qayaüstü rəsmlərin onları valeh etdiyini bildirmişdilər (23, s.6).

2004-cü ilin fevralında İsveç-Azərbaycan nümayəndə heyəti yenidən Bakıya gələrək respublikamızın Gənclər, İdman və Turizm Nazirliyində maraqlı görüşlər keçirmişdir. Burada onlara Azərbaycanda dövlətin gənclər siyasəti barədə, idmanın və turizmin inkişafı istiqamətində görülən tədbirlər haqqında ətraflı məlumat verilmişdir. İsveç-Azərbaycan Komitəsinin üzvü O.Şmid səfəri yüksək qiymətləndirərək bildirmişdi ki, "bu səfərimizdə biz Azərbaycanla bağlı bir çox həqiqətləri öyrənə bildik" (24, s.6).

İsveçdə fəaliyyət göstərən «Babək» Dil Kursları Dərnəyinin təşəbbüsü ilə 2004-cü ilin sentyabrın 4-5-də dahi Azərbaycan şairi M.Füzulinin 550 illik yubileyi Hüteburq şəhərində təntənə ilə qeyd olunmuşdur. Burada keçirilmiş Füzuli Festivalında 35-ə yaxın ölkədən gəlmiş 300-dən artıq sənətçi böyük şairin əsərlərindən ibarət zəngin proqram təqdim etmişdi. Festival ilə əlaqədar Beynəlxalq Mətbuat Mərkəzində keçirilmiş

mətbuat konfransında belə bir fikir vurğulandı ki, «bu tədbirin əsas məqsədi Füzuli yaradıcılığını dünyaya tanıtmaq, dünya azərbaycanlılarını bir araya toplamaq və xalqımızın milli-mədəni sərvətlərinin zənginliyini bir daha təsdiqləməkdir". Festivalda Azərbaycanın bir qrup ziyalısı, alim və ədəbiyyatşünası iştirak etmiş, öz çıxışlarında Füzulinin yaradıcılığı, fəlsəfəsi, onun dünya və Azərbaycan ədəbiyyatında yeri barədə ətraflı və maraqlı elmi məlumatlar verdilər. Festivalın İsveçdəki təşkilatçısı E.Qaradağlı bildirdi ki, müxtəlif ölkələrdə yaşayan soydaşlarımız bu mühüm tədbirin keçirilməsinə böyük maraq və fəal yardım göstərmişlər. Belə ki, o, Höteburqda fəaliyyət göstərən «Təbriz», «Akademik sentr» dərnəklərinin, Malmü şəhərindəki «Araz» cəmiyyətinin, Stokholmdakı "Azərbaycan Federasiyası" adlı İsveç təşkilatının və İsveçin ən iri qurumlarından olan ABŞF-nin yaxından əməkdaşlığı sayəsində reallaşmışdır (25, s.4).

Səciyyəvi cəhət həm də budur ki, Azərbaycan-İsveç mədəni əməkdaşlığı getdikcə daha çox sahələri əhatə edir. Bu baxımdan incəsənətin müxtəlif növləri üzrə qarşılıqlı əlaqələrin möhkəmlənməsi diqqəti cəlb edir. Belə ki, 2004-cü ilin noyabrın 20-də İsveç və Azərbaycan Kino xadimlərinin birgə təşəbbüsü ilə Bakıda İsveç filmləri festivalı keçirildi. «Avanti» adlanan layihə çərçivəsində həyata keçirilən bu tədbir ölkəmizin paytaxt sakinlərinə ilk dəfə İsveç kino sənətinin inciləri ilə yaxından tanış olmaq imkanı verdi. Proqrama 4 bədii, 6 qısametrajlı və 2 sənədli filmin daxil olduğu bu tədbir ölkələrimiz arasında mədəni əlaqələrin genişləndiyini bir daha nümayiş etdirdi (26, s. 3).

Azərbaycan ilə İsveç arasında mədəni əməkdaşlıq səviyyəsi yüksəldikcə onun təşkilati əsaslarının möhkəmləndirilməsinə də diqqət artır. Bu baxımdan 2005-ci ilin payızında İsveç Krallığında ölkəmizin daha bir diaspor təşkilatının – Azərbaycan Naminə Birliyin (ANB) yaradılması və dövlət qeydiyyatına alınması xüsusi qeyd edilməlidir. Birliyin sədri Nadir Hollenbard vurğulamışdır ki, ANB-nın məqsədi İsveçdə Azərbaycanın milli maraqlarını qorumaq, xalqımızın qədim mədəniyyətini təbliğ etmək, ölkəmiz ilə bağlı həqiqətləri Avropa ictimaiyyətinə çatdırmaq istiqamətində ardıcıl tədbirlər həyata keçirməkdir. Bundan əlavə cəmiyyət Azərbaycan-İsveç münasibətlərinin inkişaf etdirilməsinə səy göstərməyi özünün başlıca vəzifəsi hesab edir. Cəmiyyətin planlarında görkəmli elm və mədəniyyət xadimlərimizin doğum günlərini təntənə ilə qeyd etmək və Azərbaycan dilində məktəb açmaq nəzərdə tutulur. ANB həm də A.Nobelin Bakıdakı muzeyi qarşısında onun heykəlini ucaltmağı planlaşdırır və Nobel mükafatı laureatlarını müəyyən edən komissiyanın tərkibində azərbaycanlı nümayəndələrin də iştirakına nail olmağı nəzərdə tutur (27, s.9).

Ölkəmizin xarici siyasətinin digər uğurları kimi İsveç ilə əlaqələrin qərarlaşması və inkişafı bu gün daha da genişlənməkdədir. Bu işdə ümumilli lider H.Əliyevin layiqli davamçısı olan Prezident İ.Əliyevin xidmətləri böyükdür. 2008-ci il aprelin 25-də Nobel Xeyriyyə Fondunun prezidenti M.Nobelin başçılıq etdiyi İsveç nümayəndə heyətinin qəbulunda respublikamızın Prezidenti bildirmişdi ki, bu səfər Nobel Xeyriyyə Fondu ilə Azərbaycan arasında dostluq əlaqələrinin yaxşı göstəricisidir. Dövlətimizin başçısı Nobel ailəsinin xatirəsinin ölkəmizdə bu gün də qorunub saxlandığını vurğuladı. M.Nobel cavab nitqində Bakıda Nobel qardaşlarının yaşayıb yaratdıqları binanın – Villa Petroleanın yenidən qurulmasında göstərdiyi dəstəyə görə bütün Nobel ailəsi adından Prezident İ.Əliyevə təşəkkür edərək əmin olduğunu bildirdi ki, Villa Petroleanın açılışı İsveçlə Azərbaycan arasında mövcud olan müsbət münasibətləri daha da möhkəmləndirəcəkdir.

Müasir dünyada gedən qloballaşma və digər dərin siyasi proseslər, xalqlar və dövlətlər arasında qarşılıqlı asılılığın və əməkdaşlığın möhkəmlənməsi, demokratikləşmənin milli hüdudlar çərçivəsindən kənara çıxaraq ümumi prosesə çevrilməsi Azərbaycanın İsveç ilə hərtərəfli əməkdaşlığını gələcəkdə də möhkəmləndirilməsini mümkün və

zəruri edir.

## ƏDƏBİYYAT

1.Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с Западноевропейскими странами. Баку, Изд-во БГУ, 1997.
2.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, Azərnəşr, 1993.
3.Ахундов Б. Монополистический капитал в дореволюционной Бакинской нефтяной промышленности. М. Соцэкгиз, 1959.
4.«Эхо» qəzeti, 9 may, 2001.
5.Tarixi İpək Yolunun bərpası üzrə 8-9 sentyabr 1998-ci ildə Bakıda keçirilmiş Beynəlxalq Konfransın materialları. «İpək Yolu», 1998, №4.
6.Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, Gənclik, 1996.
7.Əliyev H. Müstəqilliyimiz əbədidir, 12-ci kitab, Bakı, Azərnəşr, 2005.
8.«Azərbaycan» qəzeti, 6 noyabr, 2000-ci il.
9.«Azərbaycan» qəzeti, 9 dekabr, 2004-cü il.
10.«Azərbaycan» qəzeti, 27 fevral, 2003-cü il.
11.«Azərbaycan» qəzeti, 16 fevral 2006-cı il.
12.«Azərbaycan» qəzeti, 23 fevral, 2003-cü il.
13.Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı, Azərnəşr, 2004.
14.«Azərbaycan» qəzeti, 28 may, 2006-cı il.
15.«Известия», 20 may, 1956.
16.Azərbaycan Respublikasının Dövlət Arxivi, F.28, siy.12, sax.vah.56, vər.18, 19, 20.
17.«Вышка», 3 fevral 1984.
18.«Бакинский рабочий», 16 mart, 1990.
19.«Vətən» cəmiyyətinin xarici əlaqələri üzrə hesabatı. 1988-ci il, vər.2.
20.«Vətən» cəmiyyətinin xarici əlaqələr üzrə hesabatı. 1988. v. 1.
21.Аббасбейли А.Н., Аббасбейли Е. Гейдар Алиев и мировая политика, Баку, «Элм», 2005.
22.«Azərbaycan» qəzeti, 22 fevral 2003-cü il.
23.«Azərbaycan» qəzeti, 23 fevral 2003-cü il.
24.«Xalq» qəzeti, 11 sentyabr 2004-cü il.
25.«Xalq» qəzeti, 22 noyabr, 2004-cü il.
26.«Azərbaycan» qəzeti, 17 noyabr, 2005-ci il.

**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
*диссертант кафедры Международных отношений БГУ*

## АЗЕРБАЙДЖАНСКО-ШВЕДСКИЕ ОТНОШЕНИЯ

Статья посвящена анализу Азербайджанско-шведских отношений. Речь идет о всех формах и сферах взаимоотношений этих двух государств. Автор на основе исторических данных показывает, что истоками эти отношения восходят далеко к прошлому. Дипломатические отношения между Азербайджанскими государствами и Королевством Швеции были созданы в далеком прошлом. Однако, равноправные и взаимовыгодные отношения формировались только после того, как Азербайджан обрел свою государственную независимость, т.е. в 1991 г. С этого времени эти два государства на основе взаимовыгодных началах сотрудничают во всех сферах международной жизни, в том числе в международных организациях.

KHAYYAM ISMAILZADE
***dissertant of the chief of International relations of BSU***

## AZERBAIJAN-SWEDEN RELATIONS

The article is devoted to the analysis of Azerbaijan-Sweden relations. These relations have two period of their development. The first period they are independent as the governments of Aqqoyunlu and Sefevi founded diplomatic relations. But at the beginniq of XIX the century Azerbaijan had lost her independence and became of a pat of Russia; in XX the century Azerbaijan became a republic of Soviet Union. For this period these relations did not have a significant character. In 1918 Azerbaijan had achieved her independence and since that time beqan to develop relations between two countries. And the Sweden government had sent her first ambassador V.Pluq to Azerbaijan. When Azerbaijan was occupied by the Soviets these relations became an end. In 1991 Azerbaijan again achieved her independence and since this year the relations between two countries beqan to develop in all sphere of international life.

***Rəyçilər: siy.e.n.Q.H.Məmmədov, t.e.d.A.Ə.Məmmədov.***
***BDU-nun «Beynəlxalq münasibətlər» kafedrasının 06 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***